**UOT: 81**
https://doi.org/10.59849/2409-4838.2025.4.37

# DİLÇİLİKDƏ MULTİDİSSİPLİNAR YANAŞMA: YENİ PERSPEKTİVLƏR ARAŞDIRMA SAHƏLƏRİ

**Nərminə Rövşən qızı Salmanlı**
AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Bakı, Azərbaycan
narmina.salman@mail.ru

*Bu tədqiqat işi dilçilikdə multidissiplinar yanaşmanın mahiyyətini, tətbiq sahələrini, dilçilik və onun digər elm sahələri ilə qarşılıqlı əlaqəsini və yeni elmi perspektivlərə töhfəsini araşdırır. XXI əsrdə dilçilik tədqiqatları artıq yalnız ənənəvi qrammatik və leksik təhlillərlə məhdudlaşmır. Əksinə, dilin sosial, psixoloji, mədəni və texnoloji aspektləri ilə qarşılıqlı əlaqədə təhlil olunması daha real və funksional nəticələr verir. Multidissiplinar yanaşma — yəni müxtəlif elmi sahələrin metod və prinsiplərinin birgə tətbiqi — dilin insan həyatındakı rolunu daha dərindən anlamağa imkan yaradır.*

*Bu yanaşma çərçivəsində sosiolinqvistika, psixolinqvistika, neyrolinqvistika, kompüter linqvistikası, mədəniyyətlərarası kommunikasiya və korpus linqvistikası kimi yeni istiqamətlər inkişaf etməkdədir. Həmçinin, süni intellekt və dil texnologiyaları sahəsində aparılan araşdırmalar dilin praktiki istifadəsinə və avtomatlaşdırılmasına böyük imkanlar yaradır. İşin məqsədi bu multidissiplinar yanaşmaların əsas prinsiplərini təhlil etmək, onların dilçilikdə necə tətbiq olunduğunu və gələcəkdə hansı sahələrdə inkişaf etdirilə biləcəyini müəyyənləşdirməkdir.*

***Açar sözlər:*** *Multidissiplinar yanaşma, müasir dilçilik, süni intellekt, dil və cəmiyyət, dilin funksional aspektləri, hüquqi dilçilik, sosiolinqvistika*

## GİRİŞ

Dil – insan cəmiyyətinin ən fundamental ünsiyyət vasitəsidir və onun öyrənilməsi tarix boyu dilçilik elminin əsas tədqiqat obyektini təşkil etmişdir. Ənənəvi dilçilik daha çox dilin struktur elementlərini – fonetika, morfologiya, [5, s. 17] sintaksis və semantik sistemi – təhlil etməyə yönəlmişdir. Lakin müasir dövrün çağırışları və cəmiyyətin dəyişən ehtiyacları göstərir ki, dilə yalnız daxili sistem kimi yanaşmaq kifayət deyil. Dil həm də sosial münasibətlərin qurulmasında, mədəni kimliyin formalaşmasında, psixoloji vəziyyətlərin ifadəsində və texnoloji vasitələrin idarəsində mühüm rol oynayır.

Bu baxımdan, dilçilik sahəsində multidissiplinar yanaşma – yəni bir neçə elmi sahənin birgə tətbiqi – aktuallıq qazanmışdır. Məsələn, sosiologiya ilə birgə aparılan tədqiqatlar dil və cəmiyyət arasındakı əlaqələri; psixologiya ilə birgə tədqiqatlar isə dilin insan beynində necə qavranıldığını və emal edildiyini araşdırmağa imkan verir. Eyni zamanda, neyroelmlər sayəsində dilin sinir sistemindəki mexanizmləri aydınlaşdırılır, informasiya texnologiyalarının tətbiqi isə dilin kompüterlərlə emalını və avtomatlaşdırılmasını mümkün edir.

Dilçilik elminin tədqiqat obyektinin bu qədər geniş olması, onu yalnız dilin daxili quruluşunu araşdıran bir sahə kimi deyil, həm də insan fəaliyyətinin müxtəlif istiqamətləri ilə qarşılıqlı əlaqədə olan bir elm sahəsi kimi təqdim edir. Bu gün dilçilik yalnız linqvistik kateqoriyalar və qaydaların öyrənilməsi ilə kifayətlənmir, həm də dilin sosial, mədəni, psixoloji və texnoloji mühitdə necə dəyişdiyini və inkişaf etdiyini tədqiq edir. Məsələn, müasir cəmiyyətlərdə baş verən sürətli qloballaşma və rəqəmsallaşma dillərarası əlaqələrin intensivləşməsinə gətirib çıxarır. Bu isə ikidillilik, çoxdillilik, dil kontaktları, kod keçidi kimi fenomenlərin öyrənilməsini daha da aktuallaşdırır. Dilçilik bu proseslərin yalnız təsvirini vermir, həm də onların insan davranışına, sosial münasibətlərə və mədəni identikliklərə təsirini araşdırır.

Eyni zamanda, müasir texnologiyaların inkişafı dilçilik üçün yeni tədqiqat platformaları açır. Sosial şəbəkələrdə yaranan dil formaları, internet diskursunun xüsusiyyətləri, emoji və digər vizual

simvolların dilə inteqrasiyası, həmçinin süni intellekt əsaslı təbii dil emalı sistemləri dilçiliyin tədqiqat sahəsini daha da genişləndirir.

Beləliklə, dilçilikdə multidissiplinar yanaşma müasir dövrün tələblərinə cavab verən, elmlərarası əməkdaşlıq əsasında formalaşan və dilin insan həyatındakı rolunu daha hərtərəfli izah edən bir istiqamət kimi çıxış edir.

**ƏSAS HİSSƏ**

Dilçilik insan həyatının ayrılmaz hissələrindən biridir. Təkcə dillərin strukturu və istifadəsi ilə məhdudlaşmayan bu sahə, həm də onların sosial, mədəni, psixoloji, bioloji və texnoloji dinamikaları ilə bağlıdır. Müasir dünyada elmlərin inteqrasiya olunması, biliklərin bir sahədən digərinə keçidi dilçiliyin də sərhədlərini genişləndirərək onu multidissiplinar bir elm sahəsinə çevirmişdir. Multidissiplinar yanaşma dilçiliyi daha geniş və hərtərəfli çərçivədə öyrənməyə imkan yaradır. Bu yanaşma vasitəsilə dil təkcə bir ünsiyyət vasitəsi kimi deyil, həm də insan beyninin, sosial [9, s. 321] quruluşların və texnoloji inkişafın bir hissəsi kimi təhlil olunur. Məsələn, neyrodilçilik beynin nitqə necə nəzarət etdiyini öyrənir, psixodilçilik isə dilin insan şüuru və psixoloji proseslərlə necə bağlı olduğunu tədqiq edir. Bundan əlavə, süni intellekt və texnologiya sahəsində dilçilik tədqiqatları, insan-makina [10, s. 21] qarşılıqlı əlaqələrində inqilabi dəyişikliklərə səbəb olmuşdur. Dilçilikdə multidissiplinar yanaşma elmi tədqiqatların sərhədlərini genişləndirərək dilin yalnız struktur baxımından deyil, həm də sosial, psixoloji, texnoloji və ekoloji aspektlərdə öyrənilməsinə şərait yaradır:

– *Dil və İnsan Düşüncəsi.* Dil təkcə kommunikasiya vasitəsi deyil, həm də insan təfəkkürünün və idrak proseslərinin ifadəsidir. Koqnitiv və nevrodilçilik bu sahədə aparıcı rol oynayaraq dilin beynin müxtəlif funksiyaları ilə necə əlaqələndiyini öyrənir. Bu yanaşma sayəsində dil pozuntularının (afaziya, disleksiya) müalicəsində yeni üsullar inkişaf etdirilir;

–*Dil və Cəmiyyət.* Sosiolinqvistika və psixodilçilik dilin cəmiyyət [1, s. 212] və insan psixologiyası ilə əlaqəsini öyrənir. Sosial siniflər, cinsiyyət fərqləri, mədəni təsirlər dilin müxtəlif cəmiyyətlərdə fərqli formalarda təzahür etməsinə səbəb olur. Eyni zamanda, ikidillilik və çoxdillilik kimi fenomenlər dilin qlobal dünyadakı rolunu göstərir;

–*Dil və Ekologiya.* Ekodillilik dilin ekoloji [8, s. 32]mesajların formalaşdırılmasında oynadığı rolu araşdırır. Məsələn, ətraf mühitin qorunmasına yönəlmiş kampaniyaların dil analizi insanların ekoloji məsuliyyətinin artırılmasında dilin rolunu ortaya qoyur;

–*Dil və Praktiki Sahələr.* Hüquqi dilçilik və tibbi dilçilik kimi praktiki sahələrdə multidissiplinar yanaşmanın əhəmiyyəti daha da artır. Hüquqi mətnlərin və tibbi ünsiyyətin tədqiqi dilin insan hüquqlarının qorunmasında və səhiyyə xidmətlərinin yaxşılaşdırılmasında rolunu göstərir.

Belə yanaşmalar dilin insan və cəmiyyət həyatındakı kompleks rolunu üzə çıxarmaqla yanaşı, müxtəlif elmi sahələr arasında inteqrasiyanı da gücləndirir. Bu isə gələcək tədqiqatlarda bu yanaşma daha əhəmiyyətli nəticələrə səbəb olacaqdır.

**Dilçilik və Elm Sahələrinin Qarşılıqlı Əlaqəsi**

Dilçilik — dili öyrənən və tədqiq edən elmdir. İnsanlar arasında ünsiyyətin əsas vasitəsi olan dil, təkcə ədəbi və ya gündəlik istifadə baxımından deyil, həm də elmi cəhətdən öyrənilir. Maraqlısı budur ki, dilçilik yalnız öz sahəsində qalmır, digər elm sahələri ilə də sıx əlaqədə olur.

İlk növbədə qeyd edək ki, fəlsəfə və məntiq ilə dilçilik arasında möhkəm bir bağ var. Fəlsəfi dilçilik dilin mahiyyətini, mənanın necə yarandığını və insan düşüncəsi ilə əlaqəsini araşdırır. Bu, insanın dil vasitəsilə necə düşündüyünü və fikirlərini necə ifadə etdiyini anlamağa kömək edir.

Psixologiya da dilçiliklə sıx bağlıdır. Psixolinqvistika [2, s. 88] deyilən sahə insanın dili necə qavradığını, yadda saxladığını və istifadə etdiyini öyrənir. Bu sahə uşaqların dil öyrənmə prosesi və beyin-dil əlaqəsi kimi məsələlərlə maraqlanır.

Tarix və etnoqrafiya sahələri də dilçiliklə əl-ələ verir. Dilin tarixi inkişafı, qədim dillər və onların bugünkü dillərlə əlaqəsi, müxtəlif xalqların dillərindəki ortaq və fərqli cəhətlər bu elm sahələrinin birlikdə araşdırma apardığı mövzulardır.

Antropologiya və dilçilik bir çox nöqtədə bir-birini tamamlayan sahələrdir. Mədəniyyətlərin dil vasitəsilə ifadəsi və etnik qrupların dillərinin öyrənilməsi bu sahələrin əsas tədqiqat mövzularındandır. Eyni zamanda, ölü dillərin araşdırılması və yenidən dirçəldilməsi həm mədəni irsin qorunması, həm də dil müxtəlifliyinin yaşadılması baxımından önəmlidir.

Müasir dövrdə əlbəttə ki, informasiya texnologiyaları da dilçiliyin müasir tərəfdaşıdır. Kompüter dilçiliyi və süni intellektin dil emalı sahələri dilin avtomatik tərcüməsi, danışığın tanınması və səsli əmrlərlə işləmə texnologiyalarını mümkün edir. Maşın tərcüməsi, səs tanıma sistemləri [3, s. 44] və chatbot texnologiyalarında dilin analitikası (mətn və ya nitq formasında olan dili texnoloji alətlərlə təhlil edib onun mənasını, quruluşunu və funksiyasını anlamaq prosesidir) istifadəçilərlə daha təbii və düzgün ünsiyyət qurmaq, mətn və səsi daha dəqiq başa düşmək üçün mühüm rol oynayır. Qeyd etməliyəm ki, sosial elmlər də dilçilik ilə sıx bağlı sahələrdir. Dilin cəmiyyətdə necə formalaşdığı və istifadə edildiyi bu iki sahənin birgə araşdırma mövzusudur. Bu baxımdan, dili yalnız qaydalar toplusu kimi deyil, sosial bir hadisə kimi də dəyərləndirmək vacibdir.

Həmçinin təbiət elmləri, xüsusilə də biologiya və neyroelm, dilin insan beynində necə formalaşdığını və necə işlədiyini araşdırır. Bu da dilçilik üçün əvəzolunmaz məlumatlar təqdim edir.

Nəticə olaraq, dilçilik təkcə ədəbi və ya qrammatik qaydaları öyrənməkdən ibarət deyil. Bu sahə müxtəlif elmlərlə birgə işləyərək insanın təfəkkürünü, ünsiyyətini və cəmiyyətlə əlaqəsini daha dərindən başa düşməyə kömək edir. Bu qarşılıqlı əlaqə həm dilçiliyin, həm də digər elm sahələrinin inkişafına böyük töhfə verir.

**Yeni Perspektivlər və Araşdırma Sahələri**

Dilçilik elmi müxtəlif elmi sahələrlə inteqrasiya etdikcə yeni perspektivlər və araşdırma istiqamətləri formalaşır. Multidissiplinar yanaşma sayəsində dilin insan təfəkkürü, cəmiyyət, texnologiya və hətta ekoloji problemlərlə qarşılıqlı əlaqəsi daha dərindən öyrənilir. Bu yanaşmalar həm nəzəri, həm də praktiki sahələrdə dilçiliyə yeniliklər gətirir:

*–Ekodilçilik: Dil və Ekosistemlər.* Ekodilçilik dilin təbiətlə qarşılıqlı təsirini və bu təsirin dil strukturunda, lüğətində necə əks olunduğunu araşdırır. Məsələn, ekosistemlərin qorunması ilə bağlı yerli dillərdə olan terminlər, mədəniyyətlərdə təbiətlə [7, s. 102] bağlı ifadələrin tədqiqi bu sahənin əsas hissəsidir;

*–Hüquqi Dilçilik: Hüquq və Dil Arasındakı Əlaqələr.* Hüquqi dilçilik qanunlarda dilin istifadəsini, hüquqi sənədlərin dəqiqliyini və dilin hüquqi mübahisələrdəki rolunu araşdırır. Bu sahə, həmçinin hüquq sistemlərində terminologiyanın standartlaşdırılmasına da töhfə verir;

*–Dil və Süni İntellekt.* Dilçiliyin texnologiya [6, s. 56] ilə birləşməsi nəticəsində təbii dilin emalı sahəsində mühüm irəliləyişlər əldə edilmiş, dilçiliyin bu sahəsi daha da aktuallaşmışdır. Süni intellekt əsaslı tərcümə proqramları, avtomatik mətn analizi və danışıq interfeysləri dilçiliyin praktiki tətbiqlərində istifadə olunur. Kompüter dilçiliyi dilin avtomatik işlənməsi, təbii dil emalı (NLP) və süni intellektlə inteqrasiyasını əhatə edir;

*–Koqnitiv Dilçilik: Şüur və Dil Əlaqələri.* Koqnitiv dilçilik [4, s. 52] dilin düşüncə ilə qarşılıqlı təsirini, insan beyni ilə əlaqəsini araşdırır. Başqa cür desək yaddaşın dil emalındakı rolunu öyrənir. Nevrodilçilik isə dilin beyində necə işlənməsi, afaziya və digər dil pozuntularının neyrobioloji səbəbləri üzərində dayanır. İnsanların dillə əlaqədar qərar qəbuletmə prosesləri, düşüncə tərzinin dil strukturuna təsiri və idrak mexanizmləri bu sahənin əsas tədqiqat istiqamətləridir;

*–Multimodal Dilçilik: Vizual və Səsli İşarələr.* Təkcə dil deyil, həm də jestlər, mimikalar və vizual işarələr insan ünsiyyətində əhəmiyyətli rol oynayır. Multimodal dilçilik bu elementləri [13, s. 3] birlikdə araşdırır və insan-makina qarşılıqlı təsirində tətbiq olunur.

**Dilçilikdə Multidissiplinar Yanaşmanın Gələcək İstiqamətləri**

Müasir dövrün tələbləri dilçiliyin yalnız mövcud vəziyyətini deyil, həm də gələcək inkişaf perspektivlərini nəzərə almağı zəruri edir. Qloballaşma, texnoloji irəliləyiş və informasiya axınının sürətlənməsi dilin rolunu həm ünsiyyət vasitəsi, həm də bilik daşıyıcısı kimi daha da əhəmiyyətli edir. Bu baxımdan multidissiplinar yanaşmanın təkamülü bir neçə mühüm istiqamətdə davam etdirilir.

Birincisi, rəqəmsal dilçilik (digital linguistics) xüsusi aktuallıq qazanır. Dilin rəqəmsal məkanda öyrənilməsi, sosial şəbəkələrdə dil davranışlarının təhlili, onlayn diskursların pragmatik xüsusiyyətləri müasir tədqiqatların əsas mövzularından birinə çevrilmişdir. Bu tədqiqatlar göstərir ki, internet dilində yaranan qısaltmalar, yeni söz formaları və vizual simvollar (emoji və GIF-lər) yalnız ünsiyyətin deyil, həm də mədəniyyətin [11, s. 102] yeni formalarının yaranmasına şərait yaradır.

İkincisi, translanguaging (dili tərcümə) və superdiversity (supermüxtəliflik) anlayışları çoxdilli cəmiyyətlərdə dil istifadəsinin dinamikasını anlamaqda mühüm rol oynayır. İnsanların eyni zamanda bir neçə dil və dialekti paralel istifadə etməsi, dil sərhədlərinin çevikləşməsi dilçilikdə yeni nəzəri modellərin formalaşmasına səbəb olmuşdur. Bu proses həm sosiolinqvistik, həm də psixodilçilik baxımından maraq doğurur, çünki fərdlərin dil seçimləri onların sosial kimliyinə, emosional vəziyyətinə və kommunikasiya məqsədinə bağlı olur.

Üçüncüsü, korpus dilçiliyinin inkişafı multidissiplinar araşdırmalara güclü dəstək verir. Müxtəlif dillərdə yaradılmış elektron korpuslar böyük mətn bazalarının statistik təhlilini mümkün edir, bu da həm qrammatik modellərin, həm də leksik tendensiyaların dəqiq öyrənilməsinə şərait yaradır. Korpus texnologiyaları sayəsində ədəbi üslubların müqayisəsi, dialektlərin dinamikası və hətta süni intellektdə istifadə olunan dil modellərinin təkmilləşdirilməsi mümkündür.

Dördüncüsü, etik və hüquqi məsələlər də dilçilikdə xüsusi diqqət tələb edir. Məsələn, süni intellekt sistemlərinin (chatbot, səs köməkçiləri) etik davranışı, gender neytral dilin standartlaşdırılması, nifrət nitqinin müəyyənləşdirilməsi kimi məsələlər yalnız hüquqi deyil, həm də dilçilik baxımından geniş tədqiq olunur. Hüquqi dilçiliyin inkişafı qanunların daha aydın və vətəndaşlar üçün anlaşıqlı formada hazırlanmasına imkan verir.

Nəhayət, dil və emosional zəka məsələsi [12, s. 222] də müasir dövrün tədqiqat prioritetlərindəndir. Danışıq analitikası (speech analytics) və emosiyaların səs tonundan tanınması texnologiyaları insan-makina ünsiyyətini daha insani və empatik hala gətirir. Bu sahə həm psixodilçilik, həm də neyrodilçilik baxımından böyük perspektivlər açır.

Beləliklə, multidissiplinar yanaşma təkcə dilçilikdə yeni nəzəriyyələr yaratmaqla kifayətlənmir, həm də cəmiyyətin müxtəlif sahələrində — təhsil, hüquq, səhiyyə, texnologiya, ekoloji siyasət — praktiki həllər təklif edir. Bu yanaşmanın gələcəkdə daha da dərinləşməsi, dilin həm fərdi, həm də kollektiv həyatdakı rolunu daha dəqiq anlamağımıza imkan verəcəkdir.

## YEKUN NƏTİCƏ

Nəticə olaraq, dilçilikdə multidissiplinar yanaşmanın əhəmiyyəti və zəruriliyi bir daha öz təsdiqini tapır. Bu yanaşma dilin təkcə qrammatik və struktur elementlərini deyil, həm də onun sosial, psixoloji, texnoloji, mədəni və ekoloji kontekstlərdəki rolunu daha dərindən anlamağa imkan verir. Dil yalnız bir ünsiyyət vasitəsi deyil, həm də insan düşüncəsinin, ictimai münasibətlərin, texnoloji innovasiyaların və mədəni irsin mühüm bir daşıyıcısıdır. Müasir dövrdə elmi biliklərin inteqrasiyası və sahələrarası əməkdaşlıq zərurəti, dilçiliyin digər elm sahələri ilə qarşılıqlı əlaqədə inkişaf etməsini şərtləndirir. Multidissiplinar yanaşma bu baxımdan təkcə bir metodoloji vasitə deyil, həm də dilçilik elminin inkişafında yeni bir mərhələ, yeni bir istiqamətdir.

Bu yanaşmanın praktiki nəticələri də çoxşaxəlidir. Koqnitiv və neyrodilçilik sahəsində aparılan tədqiqatlar dilin beyində necə formalaşdığını və psixoloji proseslərlə necə əlaqəli olduğunu ortaya çıxarır. Psixodilçilik, insanların dil qavrayışında fərdi və sosial faktorların təsirini təhlil edir, dil öyrənmə və yaddaş mexanizmlərini izah edir. Sosiolinqvistika, dilin cəmiyyətdəki müxtəlif təzahürlərini, sosial siniflər, gender fərqləri və mədəniyyətlərarası ünsiyyətdəki rolunu izah edir. Ekodillilik, dilin ekoloji məsələlərdə oynadığı rolu və ekoloji məsuliyyətin formalaşmasında dilin təsirini araşdırır. Hüquqi və tibbi dilçilik sahələri isə dilin hüquqi sənədlərin və tibbi məlumatların düzgün və aydın şəkildə çatdırılmasında əhəmiyyətini göstərir. Eyni zamanda, kompüter dilçiliyi və süni intellekt sahələri dilin avtomatik işlənməsi, maşın təcrübəsi, nitqin tanınması və səsli əmrlərlə işləyən sistemlərdə dilin tətbiqi üçün geniş imkanlar açır. Bu multidissiplinar istiqamətlər dilin təkcə nəzəri

deyil, praktiki sahələrdə də dərin təsirə malik olduğunu göstərir. Multidissiplinar yanaşma, həmçinin təhsildə texnologiyada, sağlamlıqda, hüquqda, ekologiyada və mədəniyyətlərin qorunmasında yeni tədqiqat istiqamətləri və tətbiq imkanları yaradır. Bu yanaşma sayəsində dilin yalnız elmi cəhətdən deyil, həm də insan həyatının müxtəlif sahələrində oynadığı kompleks və əhatəli rol daha aydın şəkildə başa düşülür. Məsələn, dil pozuntularının müalicəsində psixoloji və neyrobioloji yanaşmaların birgə tətbiqi, təbii dil emalı texnologiyalarında kompüter və linqvistik biliklərin sintezi, sosial və hüquqi sahələrdə dilin rolu kimi məsələlər, dilçilik elminin praktiki əhəmiyyətini artırır.

Beləliklə, dilçilikdə multidissiplinar yanaşma, müasir dövrün elmi reallıqlarına cavab verən, kompleks və genişmiqyaslı bir tədqiqat istiqaməti kimi formalaşır. Bu yanaşma yalnız elmi bilikləri artırmaqla kifayətlənmir, həm də cəmiyyətin ehtiyaclarına cavab verən praktiki həll yollarını təqdim edir. Multidissiplinar yanaşmanın gələcəkdə daha da geniş tətbiqi, dilçilik tədqiqatlarının yeni mərhələlərə keçidini təmin edəcək, müxtəlif sahələrdə daha geniş və effektiv tətbiq imkanları yaradacaqdır. Bu isə dilçilik elmini yalnız bir elm sahəsi kimi deyil, insan həyatının və cəmiyyətin hərtərəfli inkişafına xidmət edən bir platforma kimi ön plana çıxarır. Gələcəkdə multidissiplinar yanaşmanın daha da dərinləşməsi gözlənilir. Xüsusilə rəqəmsal dilçilik, korpus tədqiqatları və süni intellekt əsaslı dil texnologiyaları sahəsində aparılan araşdırmalar dilçiliyin tətbiqi imkanlarını genişləndirəcək. Eyni zamanda, təhsildə dilin daha effektiv öyrədilməsi üçün psixodilçilik və neyrodilçilik nailiyyətlərindən, hüquqi və tibbi kommunikasiya sahələrində isə terminoloji standartlaşdırmadan istifadə zərurəti artacaqdır.

Bu baxımdan multidissiplinar yanaşma yalnız elmi nəzəriyyələrin inkişafına deyil, həm də cəmiyyətin praktiki problemlərinin həllinə töhfə verir. O, dilin insan düşüncəsini, sosial münasibətləri və texnoloji yenilikləri necə formalaşdırdığını daha dərindən anlamağa imkan yaradır. Nəticə etibarilə, dilçilik müasir dövrdə sadəcə dilin izahı ilə kifayətlənməyən, insan həyatının bütün sahələrinə toxunan, cəmiyyətin tərəqqisinə və elmin inkişafına xidmət edən strateji bir sahəyə çevrilir.

## ƏDƏBİYYAT


1. Adilov, M., Verdiyev, Z., Ağayeva, F. Dilçilik problemləri / M. Adilov, Z. Verdiyev, F. Ağayeva. – Bakı: Elm, – 2017. – 212 s.
2. Əliyev, R. Sosiolinqvistika: Dil və Cəmiyyət / R. Əliyev. – Bakı: Elm, – 2019. – 320 s.
3. Verdiyev, Z. Psixolinqvistika: İnsan Beyni və Dil / Z. Verdiyev. – Bakı: Təhsil, – 2018. – 256 s.
4. Məmmədov, F. Kompüter Dilçiliyi və Süni İntellekt / F. Məmmədov. – Bakı: İnformasiya Texnologiyaları Nəşriyyatı, – 2020. – 198 s.
5. Ağayeva, F. Koqnitiv Dilçilik və Şüur Araşdırmaları / F. Ağayeva. – Bakı: Elm və Təhsil, – 2021. – 275 s.
6. Crystal, D. The Cambridge Encyclopedia of Language / D. Crystal. – Cambridge: Cambridge University Press, – 2018. – 499 p.
7. Haşimov, E. Dil və Ekologiya / E. Haşimov. – Bakı: Çağdaş Nəşriyyat, – 2020. – 145 s.
8. Təkəliyev, A. Hüquqi Dilçilik və Qanunvericilikdə Dil / A. Təkəliyev. – Bakı: Hüquq Ədəbiyyatı, – 2022. – 230 s.
9. Norris, S. Multimodal Interaction Analysis / S. Norris. – Routledge, – 2019. – 192 p.
10. Smith, J. Language and AI: Natural Language Processing Advances / J. Smith. – Oxford: Oxford University Press, – 2021. – 345 p.
11. Chomsky, N. Language and Mind / N. Chomsky. – Cambridge: Cambridge University Press, – 2017. – 205 p.
12. Harrisson, K. Ecolinguistics: Language and Ecology / K. Harrisson. – Routledge, – 2016. – 287 p.
13. Fromkin, V., Rodman, R. An Introduction to Language / V. Fromkin, R. Rodman. – Cengage Learning, – 2019. – 592 p.

## MULTIDISCIPLINARY APPROACH IN LINGUISTICS: NEW PERSPECTIVES RESEARCH AREAS

**N.R. Salmanli**

Modern linguistic science is not limited to the internal structure of language, but introduces new directions of research, integrating it into various scientific fields. Thanks to the multidisciplinary approach, language is studied from cognitive, social, technological and environmental aspects. Cognitive and neurodylism studies the relationship of language with brain activity and thinking. Computer linguistics and artificial intelligence, on the other hand, play an important role in the development of technologies such as machine translation and speech recognition. Psychodilism and sociolinguistics study the emotional effects of language and its interaction with society.

While ecodillacy explores the role of language in shaping environmental messages, legal and medical linguistics focuses on communication problems in the field of law and medicine. Media and Corpus Linguistics, on the other hand, deals with the analysis of language trends and extensive text bases in the digital environment. Consequently, the multidisciplinary approach reveals the relationships of language with different areas, allowing a deeper understanding of its importance in social, psychological and technological processes.

**Keywords:** *multidisciplinary approach, modern linguistics, artificial intelligence, language and society, functional aspects of language, legal linguistics, sociolinguistics*

## МУЛЬТИДИСЦИПЛИНАРНЫЙ ПОДХОД В ЛИНГВИСТИКЕ: НОВЫЕ ОБЛАСТИ ПЕРСПЕКТИВНЫХ ИССЛЕДОВАНИЙ

**Н.Р. Салманлы**

Современная лингвистическая наука не ограничивается только внутренней структурой языка, она вводит новые направления исследований, интегрируя их в различные научные направления. Благодаря мультидисциплинарному подходу язык изучается с когнитивной, социальной, технологической и экологической точек зрения. Когнитивная и нейролингвистика изучают взаимосвязь языка с мозговой активностью и мышлением. С другой стороны, компьютерная лингвистика и искусственный интеллект играют важную роль в развитии таких технологий, как машинный перевод и распознавание речи. Психоделия и социолингвистика изучают эмоциональные эффекты языка и его взаимодействие с обществом.

В то время как экоязычие исследует роль языка в формировании экологических сообщений, юридическая и медицинская Лингвистика фокусируется на проблемах коммуникации в области права и медицины. С другой стороны, медиа и корпусная лингвистика имеют дело с анализом языковых тенденций и обширных текстовых баз данных в цифровой среде.

Следовательно, мультидисциплинарный подход позволяет глубже понять значение языка в социальных, психологических и технологических процессах, выявляя его связи с различными областями.

**Ключевые слова:** *междисциплинарный подход, современная Лингвистика, искусственный интеллект, язык и общество, функциональные аспекты языка, юридическая Лингвистика, социолингвистика*